Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 82 (1210) 4 may - 5 may 2016-cı il

# YENİ DÖVRÜN İMİŞLİSİ

## Burada böyük layihələrə uğurla start verilir

> "... Sahibkarlığı inkişaf etdirmək üçün hər il mənim rəhbərliyimlə geniş müşavirə keçirilir, həm siyasi dəstək verilir, həm iqtisadi məsələlər öz həllini tapır. İnfrastruktur layihələri, - elektrik stansiyaları, kənd yolları, içməli su layihələri, - bütün bu layihələr ölkəmizin çoxşaxəli inkişafını təmin edir və regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının tərkib hissəsidir.".
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

(Əvvəli ötən sayımızda)

**Bu gün regionların inkişafına dair Dövlət Proqramına uyğun olaraq Azərbaycanın bütün ərazilərində uğurlu, həm də kompleks şəklində quruculuq, abadlıq işləri davam etdirilir. Görülən bu işlərin önəmini nəzərə alan ölkə prezidenti cənab İlham Əliyev hər bir ilin konkret mahiyyətini, missiyasını öncədən bəyan edir. Yəni əgər bir anlıq arxada qalan illərə nəzər salmış olsaq, onda görərik ki, ötən illər Azərbaycan üçün daha çox sənayenin, kənd təsərrüfatının inkişaf etdirilməsi bu sahələrin qabardılması ilə yadda qaldı. Ona görə də ölkə tarixinə arxada qalan illər "quruculuq illəri", "sənaye ili", "kənd təsərrüfatı ili", cari il isə "Multikultiralizm ili" kimi daxil olacaqdı.**

Bax, əvvəldə dediyimiz bu prinsiplərin əsas mahiyyəti də təbii ki, ölkədə aparıcı sahələrin daha sürətlə inkişafını təmin etmək və bunun nəticəsində də həm ölkə əhalisinin maddi-sosial durumun yaxşılaşdırmaq, həm də yeni iş yerlərinin açılması hesabına Azərbaycan insanının aylıq büdcəsinin möhkəmlənməsini təmin etməkdir. Bu gün faktiki olaraq İmişlidə sənayenin özünəməxsus xüsusiyyətləri hər kəsin diqqətini çəkir. Əgər rayonun sənaye obyektlərini nəzərdən keçirsək, onda görərik ki, bu gün İmişli fəaliyyət göstərən "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC müxtəlif növ qəndlər istehsal etməklə yanaşı, həm ölkənin bazarını, həm də ölkədən kənarda da öz məhsullarını realizə etmək imkanı qazanıbdı. Təbii ki, bölgədə yetişdirilən şəkər çuğunduru hesabına geniş fəaliyyət göstərən bu Birlik həm də rayon sakinlərinin işlə təmin edilməsində müəyyən rol oynayır.

İmişlidə təkcə "Azərbaycan Şəkər İstehsalab Birliyi" MMC-nin xətti il əvə onun fəaliyyəti nəticəsində kəllə qənd, qarışıq yem, bitki yağları, spirt emalı, çuğundur yem qurutma zavodları demək olar ki, tam gücü ilə işləyir və adlarını vurğuladığımız məhsulların istehsalı birmənalə şəkildə təmin olunmuşdur. Həmçinin rayonun Bəhrəmtəpə qəsəbəsində 50 min tonluq tutumu olan taxıl anbarı, Qaragüvəndik kəndində yumurta istehsalı ilə məşğul olan, özü də damazlıq yumurta sahəsində ixtisaslaşan "Araz Damazlıq quşçuluq" MMC-nin, "İmişli Broyler"in fəaliyyət göstərməsi də həm rayonun büdcəsinə, həm də rayon sakinlərinin sosial durumuna müsbət təsir etməkdədi. Bu sahələrə əlavə olaraq "Araz" Konservileşdirilmiş Şirələr və Konyak zavodunun istifadəyə verilməsini də əlavə etsək, onda ümumi daxili məhsulun artımı daha çox diqqəti çəkər. İlin əvvəlindən İmişli Şəkər zavodu birinci rübdə 786264 ton şəkər tozu istehsal etmişdi. O cümlədən cavod həm də digər sifarişçilərin xammalından istifadə etməklə 448144 ton da əlavə şəkər tozunun emalına müvəffəq ola bilmişdi. Ümumiyyətlə isə birinci rübdə bu zavdodda 32202900 manatlıq şəkər tozu istehsal olunmuşdur ki, bu həm ölkə bazarlarına, yeni əhalimizə çatdırılmış, həm də bu məhsulun gətirdiyi gəlir rayonun və istehlakçıların həyat səviyyəsinin artırılmasına öz müsbət təsirini göstərmişdi. Əgər diqqət yetirsək onda görərik ki, 2016-cı ildə İmişli rayonu üzrə sənaye məhsullarının istehsal həcmi manatla ifadə edilərsə, onda 39474800 manat təşkil etmişdi. Bu isə istehsal olunan sənaye məhsullarının təqribən 91 fazinin qeyri-dövlət sektorunun payına düşməsi hesabına əldə olunmuşdu. Yeni iş adamları, sahibkarlar, fermerlər öz qarşılarına qoyduqları məqsədə müvəffəq olduqları üçün onların istehsal etdikləri məhsul sonda ümumi rayon istehsalının böyük bir hissəsinə çevrilmişdi.






Yəqin ki, İmişli rayonunda neft istehsal olunduğunu hər kəs bilir. Bax, bircə faktı qeyd etmək lazımdı ki, ötən ilin yekunlarına görə İmişlidəki Muradxanlı neft yataqlarından 4,5 min ton neft hasil olunmuşdu. Bu, təkcə cari ilin 3 ayında əldə olunan məhsulun rəqəmlə ifadəsidi. Həmin 4.5 min ton neft isə bütövlükdə qarşıya qoyulan planın 100 faiz yerinə yetirildiyinə həm də təminat olmuşdu.

Bir məqamı da diqqətə çatdırmaq lazımdı ki, İmişlidə fəaliyyət göstərən sənaye müəssisələri bütünlüklə müasir avadanlıqlarla təmin edildiyindən onlar həm istehsal gücü, həm də ortaya qoyduğu məhsul qəbul olunmuş standarlara cavab verir. Heç də təsadüfi deyil ki, Azərbaycanın bu güşəsi həm də xarici investorların diqqətini çəkidi. Ona görə də bu gün İmişlidə xarici şirktlərdən olan Belçikanın Lommel şəhərində fəaliyyət göstərən bəzi şirkətlər artıq öz nümayəndələrini İmişliyə göndərmiş və müxtəlif müqavilələr imzalanmışdı. Təbii ki, adı çəkilən şəhər həm də İmişliylə qardaşlaşdıqları barədə memoranduma da imza atmışdı. Deməli, artıq İmişlidə holland pendirinin istehsalı üçün də müəyyən hazırlıq işləri görülüb və başa çatdırılıbdı. Yəqin ki, yaxın illərdə artıq İmişlidə istehsal olunun holland pendiri süfrələrimizi bəzəyəcəkdi. Çünki ötən ilin 2-ci ayında həmin məsələnin reallaşması üçün xarici nümayəndələr vəziyyətlə yerində tanış olmaq məqsədi ilə rayona səfər etmişdilər. Vurğulamaq yerinə düşər ki, həmin zavodun tikintisi üçün 200 milyon avro ayrılacaq və zavoda 200-ə yaxın insanın işlə təmin olunması nəzərdə tutulubdu. Üstəlik, zavodun tikiləcəyi 500 hektar ərazi də müəyyənləşdirilib, zavodun layihəsinə uyğun olaraq işin başlanmasına start verilən kimi İmişliyə 1000 baş holland inəyi də gətiriləcək. Bax, kompleks şəklində layihəsi hazırlanmış zavod özlüyündə artıq həm İmişli üçün, həm Azərbaycan üçün böyük önəm daşıyır. İnanmaq olar ki, bu cür möhtəşəm bir layihə mütləq gerçəkləşəcək və dünya artıq İmişlidə istehsal olunan, yeni üzərində Azərbaycanın, İmişlinin ünvanı göstərilən holland pendiri ilə üz-üzə gələcəkdi.

**(Ardı var)**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ